# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin regional idarələrinin ərazi mənsubiyyətinin, ştat sayının müəyyən edilməsi və bununla bağlı maddi-texniki təminat məsələlərinin həlli haqqında

“Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 oktyabr tarixli 844 nömrəli Fərmanının 2.1-ci, 2.2-ci və 2.4-cü bəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin regional idarələrinin ərazi mənsubiyyətinin bölgüsü” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin regional idarələrinin işçilərinin say həddi 215 ştat vahidi, o cümlədən regional idarələrin aparatı üzrə cəmi 20 ştat vahidi, abidə mühafizəçiləri üzrə 195 ştat vahidi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin regional idarələrinin 2020-ci ildə saxlanılması xərclərinin maliyyələşdirilməsi Azərbaycan Respublikasının 2020-ci ilin dövlət büdcəsində “Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər

siyasəti və bu qəbildən olan digər fəaliyyət" bölməsində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 17 fevral 2020-ci il

№ 49

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2020-ci il 17 fevral
tarixli 49 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin regional idarələrinin ərazi mənsubiyyətinin bölgüsü

## 1. Dövlət Xidmətinin Bakı Regional İdarəsi

| **İnzibati ərazilər (şəhər, rayon)** |
|---|
| 1. Bakı və ətraf qəsəbələri |
| 2. Abşeron |

## 2. Dövlət Xidmətinin Şabran Regional İdarəsi

| **İnzibati ərazilər (şəhər, rayon)** |
|---|
| 1. Şabran |
| 2. Sumqayıt |
| 3. Qobustan |
| 4. Xızı |
| 5. Xaçmaz |
| 6. Quba |
| 7. Qusar |
| 8. Siyəzən |
| 9. Qubadlı |
| 10. Şuşa |
| 11. Xankəndi |
| 12. Zəngilan |

## 3. Dövlət Xidmətinin Qəbələ Regional İdarəsi

| **İnzibati ərazilər (şəhər, rayon)** |
|---|
| 1. Qəbələ |
| 2. Şamaxı |
| 3. Ağsu |
| 4. İsmayıllı |
| 5. Oğuz |
| 6. Şəki |
| 7. Qax |
| 8. Zaqatala |
| 9. Balakən |
| 10. Göyçay |
| 11. Ucar |
| 12. Zərdab |
| 13. Ağdaş |
| 14. Mingəçevir |

## 4. Dövlət Xidmətinin Gəncə Regional İdarəsi

| **İnzibati ərazilər (şəhər, rayon)** |
|---|
| 1. Gəncə |
| 2. Naftalan |
| 3. Samux |
| 4. Goranboy |
| 5. Yevlax |
| 6. Bərdə |
| 7. Tərtər |
| 8. Ağcabədi |
| 9. Beyləqan |
| 10. Göygöl |
| 11. Ağstafa |
| 12. Qazax |
| 13. Tovuz |
| 14. Şəmkir |
| 15. Gədəbəy |
| 16. Daşkəsən |
| 17. Kəlbəcər |
| 18. Xocalı |
| 19. Laçın |
| 20. Ağdam |

## 5. Dövlət Xidmətinin Salyan Regional İdarəsi

| **İnzibati ərazilər (şəhər, rayon)** |
|---|
| 1. Salyan |
| 2. Lənkəran |
| 3. Astara |
| 4. Lerik |
| 5. Yardımlı |
| 6. Masallı |
| 7. Cəlilabad |
| 8. Biləsuvar |
| 9. Neftçala |
| 10. Şirvan |
| 11. Hacıqabul |
| 12. Sabirabad |
| 13. Saatlı |
| 14. İmişli |
| 15. Kürdəmir |
| 16. Cəbrayıl |
| 17. Xocavənd |
| 18. Füzuli |